# KİMYANIN TƏDRİSİ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ ƏYANİ VASİTƏLƏRDƏN İSTİFADƏ İMKANLARI

**G.D.Quliyeva[1], G.H.Əliyeva[2]**

*[1]Azərbaycan Respublikasının Təhsil İnstitutu, böyük elmi işçi*
*[2]Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Məqalədə yaddasaxlama piramidası verilmişdir. Bu piramidadan aydın olur ki, təlim zamanı əsas məqsəd məlumatın şagird tərəfindən yalnız yadda saxlanmasına nail olmaq deyildir. Şagirdləri fəallaşdıran fəal təlim metod və üsullarından, əyani vasitələrdən, İKT texnologiyalarından, müxtəlif tipli eksperimental məsələ və təcrübələrdən istifadə etməklə istənilən nəticəni əldə etmək mümkündür. Bütün bu deyilənlər məqalədə verilmiş dərs nümunəsində öz əksini tapmışdır.*

Müasir dünyada elm və texnolgiya sahəsində baş verən dəyişikliklər təhsil sahəsində də özünü göstərməkdədir. Müstəqillik əldə etdikdən sonra ölkəmizdə bir-birinin ardınca inkişafyönümlü islahatlar uğurla həyata keçirilməkdədir. Bu islahatlardan ən uğurlusu təhsil islahatı olmuşdur. Uzun illər sovet təhsil sisteminə köklənərək ənənəvi təhsil sistemini özündə ehtiva etdirən pedaqoji mühit dünyaya yeni pəncərə açdıqdan sonra yeni-yeni yanaşmalarla təlim və tədrisə istiqamətlənməli oldu. Nəticədə təhsilimizdə yeni bir uğurlu addımlar atılmağa başladı. Atılan bu addımlardan biri də kurikulum islahatının həyata keçirilməsi ilə bağlı oldu ki, bu da köklü dəyişikliklərlə özünü təlim və tədrisdə göstərdi. Dünyanın aparıcı ölkələrinin təhsil sisteminin təcrübələrindən yararlanaraq dünya təhsil istemınə inteqrasiya etməklə müasir tələblərə uğun şagirdin yetişdirilməsi, onun cəmiyyətə, vətənə, eləcə də bəşəriyyətə yararlı şəxsiyyət olmasını önə çəkməklə inteqrasiya edilmiş təhsil siyasətinin uğurlarını hazırda görməkdəyik. “Demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, differensiallaşdırma, fərdiləşdirilmə, humanitarlaşdırılma prinsiplərinə əsaslanan yeni təhsil sisteminin yaradılması” mühüm vəzifə kimi İslahat proqramında yer almışdır. “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”nda təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri kimi inteqrasiya “milli təhsilin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı” şəklində müəyyən edilmişdir. Təhsil Qanunda da qeyd olunduğu kimi “Təhsildə aparılan islahatlar səmərəli təlim mühiti yaratmaq, təlim və təhsilin nəticələrini yüksəltmək üçün başlıca istiqamətlərdəndir”. Bununla yanaşı ən ali qanunumuz olan Azərbaycan Respublikasının Konstitusiyasında verilmiş Təhsil haqqında qanunda qeyd edilir ki, “Dövlət minimum təhsil standartlarını müəyyən

edir". Dövlətin təhsil sahəsində müəyyən etdiyi standartlardan irəli gələrək kurikulum islahatı da uğurlu islahatlardan biri kimi öz tövhəsini verməkdədir. Kurikulum islahatının həyata keçirilməsi ölkədə dərs, dərsə verilən tələblər, dərsin mərhələləri, qiymətləndirmə və bu kimi məsələlərə yenidən baxışın formalaşmasına şərait yaratdı.

Təlimdə başlıca məqsəd alınmış məlumatı ancaq yadda saxlamaq deyil, həm də onun əvvəlki məlumatla qarşılıqlı əlaqəsini başa düşməkdir. Aşağıdakı sxemə diqqət yetirsək bunu daha aydın görə bilərik (Sxem1):

**Sxem 1: Yaddasaxlamanın piramidası**




Sxemdən aydın olu ki, təlim prosesi zamanı müəllim nə qədər çalışsa da verilən informasiyanın şagirdlər tərəfindən 20 %-i eşitmə, 30%-i görmə və 50 %-i

isə hiss üzvləri vasitəsilə qəbul olunur. Bu səbəbdən hər bir dərsdə müəllimin qarşısında duran əsas sual şagirdi dərsə, mövzuya necə maraqlandırmaq? Dərsi öyrənməsi üçün onu necə həvəsləndirməli? Burada həmçnin əsas və ən önəmli məslələrdən biri şagirdin öyrəndiyi mövzunun mahiyyətini dərk etməsi, Bu mövzunu nə üçün öyrənirəm? Mənə nə üçün lazımdır? Mənə hansı həyati bacarıqlar verir? Mən bu mövzunu öyrənməklə öz həyatımda harda və necə tətbiq edə bilərəm? Suallarına cavab alsın.

Bu gün təhsil sistemi təlimdə kəsilməzliyi, distant və mobilliyi, texnoloji və layihəliliyi, interaktiv və dialoqluğu tələb edir. Bütün bu deyilənləri isə İKT texnologiyalarından, digər texniki və əyani vasitələrdən, didaktik materiallardan istifadə etməklə reallaşdırmaq mümkündür. Təlim prosesi şagirdlərin fəallığının artırılmasına imkan verən müxtəlif interaktiv forma və metodların tətbiqi ilə həyata keçirildikdə öyrənilən materiallar şagird tərəfindən şüurlu surətdə mənimsənilir, kimyəvi proseslərin gedişi qanunauyğunluqları haqqında tam təsəvvür yaranır. Şagirdlərin təlim maraqlarını təmin etmək üçün kimyanın tədrisi prosesinə yaradıcı yanaşmaq, onun səciyyəvi cəhətlərini nəzərə almaq, şagirdlərin idrakını inkişaf etdirən metodlardan istifadə etmək lazımdır. Çünki əgər şagirddə təlimə qarşı maraq yaranmazsa onda təlim prosesində onun fəallığını artırmaq mümkün olmayacaqdır. Və bu da təlimdən istənilən nəticənin əldə olunmasına mane olacaqdır. Bunun üçün dərs nümunəsinə nəzər yetirək.

**Mövzu: Kovalent rabitənin növləri**

**Alt standart:**

**1.2.1.** Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda başverən prosesləri şərh edir

**Təlim məqsədi:**

Polyar və qeyri-polyar kovalent rabitə növlərini şərh edir, onların əmələgəlmə mexanizmlərini fərqləndirir.

**Təlim forması:** cütlərlə iş, kollektivlə iş.

**Təlim üsulu:** BİBÖ, Yaşıllaşan ağac oyunu, Venn diaqramı,

**İnteqrasiya:** . F-3.2.2.

**Resurslar:** İş vərəqi, slayd, dərslik, müxtəlif ölçülü və rəngli kürəciklər həmçinin, internet saytları: **https://www.youtube.com/watch?v=M6oQ5F2B5wM**

**Dərsin gedişi:**

**Motivasiya (Problemin qoyuluşu).** Müəllim: dərslikdən "Kimyəvi rabitənin növləri"nə aid olan mətni diqqətlə oxuyun və ekranda gördüyünüz şəkillərə aid aşağıdakı suallara cavab verin:




Şəkil 1



Şəkil 2




Şəkil 3



Şəkil 4

**1.** Flüor, yod, oksigen və azot molekullarında hansı rabitə növü mövcuddur?
**2.** HF, HY, $H_2O_2$, $N_2H_4$ molekullarında hansı rabitə növü vardır?
**3.** Su molekulu ($H_2O$) əmələ gəldikdə hidrogen və oksigen atomları arasında hansı rabitə növü yaranır?
**4.** Şəkildə gördüyünüz molekulların hansında yalnız siqma, hansında həm siqma, həm də pi rabitələri vardır?

Motivasiyanın hansı yolla reallaşdırılmasından asılı olmayaraq əsas odur ki, şagirdlərdə düzgün fikir formalaşsın və motivasiya uzun vaxt aparmasın. Motivasiyaya aid sualların cavablandırılmasına 5-6 dəqiqədən artıq vaxt sərf olunmamalıdır. Şagirdlərdə müəyyən bilik formalaşdıqdan sonra müəllim lövhədən BİBÖ cədvəlini asır və sütunların doldurulmasını şagird cütlərinə həvalə edir.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

Öyrədici motivasiya, bilik alma və anlama mərhələləri reallaşdırıldıqdan sonra, **tədqiqat sualı** qoyulur: *kovalent rabitənin növlərini bir-birindən necə fərqləndirmək olar?*

**Tədqiqatın aparılması.** Bu mərhələni müəllim "Yaşıllaşan ağac oyunundan" istifadə etməklə həyata keçirir. Bunun üçün lövhədə üzərində əvvəlcədən ağac şəkli çəkilmiş böyük bir vərəq asılır. Bu ağac yarpaqsız olur. Dərsdən əvvəl yaşıl rəngli kağızlardan yarpaq formasında kəsilmiş (sualların sayı qədər) kağızlar şagirdlərə paylanılır.



**Şəkil 5**



**Şəkil 6**

Bu oyun şagirdləri iki qrupa bölərək qrup üzvləri və qrup liderləri müəyyənləşdirilməklə həyata keçirilir. Hər qrupa tapşırıqlardan ibarət sorğu vərəqləri qruplara paylanır.

**I Qrup**

1. Polyar kovalent rabitəyə aid 2-3 nümunə göstərin.
2. Polyar kovalent rabitənin xüsusiyyətlərini sadalayın.
3. $2KMnO_4 \xrightarrow{t}$

Reaksiya nəticəsində alınan maddələrdə kovalent rabitənin hansı növləri vardır? Maddələrin qrafik formullarını çəkin və xətlərin üzərində rabitə növünü yazın.

**II Qrup**

1. Aşağıdakı maddələrdən qeyri-polyar kovalent və polyar kovalent rabitəsi olan maddələri seçin, ayrıca qruplaşdırın və onların qrafik formullarını tərtib edin.

**$H_2O$, $O_2$, HF, $Cl_2$, $H_2S$, $N_2$, $H_2SO_4$, $H_2S$**

2. Polyar və qeyri-polyar rabitələrin fərqlərini Venn diaqramında göstərin.



**3.** $H_2$, $Cl_2$, HCl molekullarında siqma rabitəsinin əmələ gəlməsini elektron buludları vasitəsi ilə göstərin.

**Məlumat mübadiləsi və müzakirəsi.** Lövhədəki ağac da öz növbəsində iki hissəyə ayrılır. Şagirdlər qrup daxilində sualların cavablarını taparaq hər sualın (və ya tapşırığın) cavabını bir yarpağa yazır. Qruplar bu prosesi yerinə yetirdikdən sonra lövhədə ağacın onlar üçün ayrılmış hissəsində yarpaqları yapışdırırlar. Hansı komanda (və ya qrup) suallara daha doğru və tam cavab verərsə o qrup qalib gəlir. Bu mərhələdə qruplara verilmiş vaxt bitdikdən sonra müzakirə aparılır. Şagirdlər digər qrupların cavabları ilə tanış olur, münasibət bildirir, suallar verirlər və bəzi lazım olan məsələlərdə müəllim də öz əlavələrini edir. Yönləndirici, düşündürücü suallar verərək onların biliklərini tamamlayır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlərin söylədikləri fikirləri və hazırladıqları cavabları bir daha nəzərdən keçirməklə tədqiqat sualına nə səviyyədə cavab verilməsi qeyd olunur, lazım olduqda cavablara əlavələr edilir, mövzunun tədrisində əsas məqsədə nail olunması istiqamətində ümumiləşdirmə aparılır. Nəticədə şagirdlər kovalent rabitənin növlərini, polyar və qeyri-polyar kovalent rabitələrin fərqlərini və oxşar cəhətlərini, bu rabitələrin hansı maddələrdə olmasını mənimsəyirlər.

**Yaradıcı tətbiqetmə.** Qazanılan biliklərin möhkəmləndirilməsi aşağıdakı cədvəlin köməyi ilə aparıla bilər.

| Maddə | Atomların sayına | Rabitə əmələ gətirən elektronların forması | Rabitənin növünə görə | Elektron sıxlığının istiqaməti | Tərkibinə görə |
|---|---|---|---|---|---|
| $Cl_2$ | | | | | |
| $O_2$ | | | | | |
| $H_2O$ | | | | | |

**Qiymətləndirmə meyarı: izahetmə**

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda başverən prosesləri şərh etməkdə çətinlik çəkir. | Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda başverən prosesləri müəllimin köməyi ilə şərh edir | Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda başverən prosesləri şərh edərkən bəzi səhvlərə yol verir. | Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda başverən prosesləri şərh edir |

## İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının konstitusiyası
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. “Kurikulum jurnalı,” 2009, №4
3. Azərbaycan Respublikasının ümumi təhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı, 2013
4. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. “Kurikulum” jurnalı. Bakı, 2009, №2
5. R Əliyeva., V. Abbasov., A. Məhərrəmov., M. Abbasov., S. Hacıyev., N.Abışov., V Əliyev., A. Əliyev. Kimya (Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik). Bakı, “Aspoliqraf”, 2015

***Г.Д.Гулиева, Г.Г.Алиева***

**РЕЗЮМЕ**

В статье приведена пирамида запоминания. Из этой пирамиды ясно, что основная цель обучения - не позволить ученикам запоминать информацию. Можно получить желаемый результат с использованием активных методов и методов обучения, наглядных пособий, технологий ИКТ и других экспериментальных вопросов и практик, которые активируют учащихся. Все эти утверждения отражены в примере урока, приведенного в статье.

***G.D.Guliyeva, G.H.Aliyeva***

**SUMMARY**

A pyramid of remembering is given in the article. It is clear from this pyramid that the main purpose of the training is not to allow the students only to remember the information. It is possible to get the desired result using active learning methods and techniques, visual aids, ICT technologies, and other experimental issues and practices that activate students. All of these statements are reflected in the example of the lesson given in the article.

**Açar sözlər:** təhsil, təlim prosesi, İKT, texnologiya, şagird, keyfiyyət, islahat, kurikulum, təhsil qanunu.

**Ключевые слова:** образование, обучение, ИКТ, технология, ученик, качество, реформа, учебный план, закон об образовании.

**Key words:** education, training, ICT, technology, pupil,quality, reform, curriculum, education law.